*Qəbələ Rayon İcra Hakimiyyəti başçısının 110 nömrəli 30 oktyabr 2024-cü il tarixli sərəncamı ilə təsdiq edilmişdir.*

# 8 Noyabr “Zəfər Günü” ilə bağlı Qəbələ rayonunda həyata keçiriləcək Tədbirlər Planı

| S/№ | Tədbirin adı | İcraçı təşkilatlar | İcraya məsul şəxs | İcra vaxtı |
|---|---|---|---|---|
| 1. | Zəfər Gününün dördüncü ildönümünə həsr olunmuş idarə və təşkilatlarda, hərbi hissələrdə, toplantıların, dəyirmi masaların və mədəni kütləvi tədbirlərin keçirilməsi | Rayon icra hakimiyyəti, idarə, müəssisə və təşkilatlar | Ətayə Osmanova<br>Şahmurad Abbasov | 1-8 noyabr tarixləri |
| 2. | Zəfər Günü ilə əlaqədar rayonun mərkəzində tərtibat işlərinin aparılması, rəqəmli bilbordlarda, monitorlarda və banerlərdə "Xarı bülbül" embleminin, qələbə əhval-ruhiyyəli şəkillərin və kollajların əks etdirilməsi | Rayon icra hakimiyyəti, şəhər, qəsəbə və kənd bələdiyyələri | Ətayə Osmanova<br>Şahmurad Abbasov<br>Nazir Cabbarov<br>Ramin Əliyev | 8 noyabradək |
| 3. | Şəhər və rayonlarda gənclər və yeniyetmələr arasında vətənpərvərlik ruhunun yüksəldilməsi məqsədilə müxtəlif tədbirlərin - idman yarışları və müsabiqələrin keçirilməsi | Rayon icra hakimiyyəti,<br>Təhsil sektoru,<br>Gənclər və İdman İdarəsi,<br>Mədəniyyət şöbəsi,<br>Qəbələ Dövlət Peşə Təhsil Mərkəzi | Ətayə Osmanova<br>Şahmurad Abbasov<br>Arifə Bayramova<br>Fəxri Soltanov<br>Qalib Nəbiyev<br>Malik Ağayev | 8 noyabradək |
| 4. | Zəfər günü ilə əlaqədar Şəhidlər xiyabanının ziyarət edilməsi | Rayon icra hakimiyyəti, idarə, müəssisə və təşkilatlar, ictimaiyyət nümayəndələri | Arif Allahverdiyev<br>Ətayə Osmanova<br>Şahmurad Abbasov | 8 noyabradək |
| 5. | Ağacəkmə aksiyasının keçirilməsi | Rayon icra hakimiyyəti, idarə, müəssisə və təşkilatlar | Ətayə Osmanova<br>Şahmurad Abbasov<br>Əkrəm Babayev<br>Saleh Rzayev<br>Ramin Əliyev | 7 noyabr |
| 6. | Ümumrayon iməcliyinin keçirilməsi | Rayon icra hakimiyyəti, idarə, müəssisə və təşkilatlar | Arif Allahverdiyev<br>Ətayə Osmanova<br>Şahmurad Abbasov<br>Razil Abdullayev<br>Saleh Rzayev | 7 noyabr |
| 7. | Zəfər gününə həsr olunmuş ümumrayon tədbirinin və konsert proqramının təşkil edilməsi | Rayon icra hakimiyyəti, idarə, müəssisə və təşkilatlar | Ətayə Osmanova<br>Şahmurad Abbasov<br>Malik Ağayev | 8 noyabr |
| 8. | Zəfər günü ilə əlaqədar keçirilmiş tədbirlər rayon icra hakimiyyətinin internet səhifəsində və sosial şəbəkələrdə işıqlandırılsın | Rayon icra hakimiyyəti | Ətayə Osmanova<br>Nazir Cabbarov | 1-8 noyabr |
| 9. | Zəfər günü ilə əlaqədar məqalələrin «Qəbələ» qəzetində dərc edilməsi | Rayon İcra Hakimiyyəti, «Qəbələ» qəzeti | Ətayə Osmanova<br>Azad Məmmədov | Noyabr ayı |

## Bayraq dövlətçiliyimizin rəmzidir

Dövlət Bayrağı Günü Prezident İlham Əliyevin 2009-cu il 17 noyabr tarixli “Azərbaycan Respublikasının Dövlət Bayrağı Gününün təsis edilməsi haqqında” Sərəncamı ilə təsis edilib. Həmin il dekabrın 4-də Milli Məclis noyabrın 9-nu Dövlət Bayrağı Günü kimi rəsmiləşdirib. Azərbaycanın Dövlət Bayrağı 1918-ci il noyabrın 9-da Cümhuriyyət Hökumətinin iclasında qəbul edilib. 1920-ci ilin aprelində Cümhuriyyətin süqutundan sonra endirilən üçrəngli bayrağımız 70 il sonra - 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən sessiyanın qərarı ilə Naxçıvan Muxtar Respublikasında yenidən ucaldılıb. Bundan bir qədər sonra - 1991-ci il fevralın 5-də Azərbaycan Ali Sovetinin qərarına əsasən həmin üçrəngli bayraq Dövlət Bayrağı kimi qəbul olunub. Həmin il oktyabrın 18-də “Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktı ilə Azərbaycan Respublikası



Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi onun dövlət rəmzlərini, o cümlədən Dövlət Bayrağını bərpa edib. 2004-cü il iyunun 8-də “Azərbaycan Respublikası Dövlət Bayrağının istifadəsi qaydaları haqqında” Azərbaycan Respublikasının Qanunu ilə bu sahədə qanunvericilik bazası təkmilləşdirilib. Azərbaycan Respublikasının Dövlət Bayrağı bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq isə yaşıl rəngdədir. Qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilib. Bayrağın eninin uzunluğuna nisbəti 1:2-dir. Mavi rəng - Azərbaycan xalqının türk mənşəli olması və türkçülük ideyası ilə bağlıdır. Qırmızı rəng - müasirlik, azadlıq, inkişaf və müstəqilliyi tərənnüm edir. Yaşıl rəng - İslam sivilizasiyasına, İslam dininə mənsubluğu ifadə edir. Müstəqil Azərbaycanın Dövlət Bayrağındakı üç rəngin ifadə etdiyi və XX əsrin əvvəllərindəki milli istiqlal ideologiyamızın üç təməl prinsipini təşkil edən “türkçülük, islamçılıq və müasirlik” formulunun müəllifi görkəmli Azərbaycan mütəfəkkiri Əli bəy Hüseynzadədir. Bu gün Azərbaycanın Dövlət Bayrağı ölkəmizin bütün ərazisində qürurla dalğalanır və Azərbaycan xalqı Dövlət Bayrağı Gününü tamam başqa əhvali-ruhiyyədə, böyük qürur və fərəh hissi ilə qeyd edir.

## Əsas qanun




Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsindən 29 il ötür. Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan müstəqil Azərbaycanın ilk Konstitusiyası 1995-ci il noyabrın 12-də keçirilmiş ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilib. Dövlətin Əsas Qanunu 1995-ci il noyabrın 27-də qüvvəyə minib.

1995-ci ildə qəbul olunmuş Konstitusiya müstəqil Azərbaycanın ilk, ümumilikdə isə ölkəmizin tarixində dördüncü Konstitusiyasıdır.

1995-ci ilin mayında Ulu Öndər Heydər Əliyevin sədrliyi ilə Konstitusiya Komissiyası formalaşdırıldı. Komissiyanın hazırladığı əhatəli Konstitusiya layihəsi 1995-ci ilin oktyabrında ümumxalq müzakirəsinə verildi. Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsinə çıxarıldı. Referendumda seçicilərin 86 faizi iştirak etdi. Onların 91,9 faizi Konstitusiyanın qəbul edilməsinin lehinə səs verdi. Əsas Qanun noyabrın 27-də hüquqi qüvvəyə mindi.

Konstitusiyanın qəbulu müstəqillik tariximizin ən mühüm hadisələrindən biri olmaqla yanaşı, ümummilli lider Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı böyük xidmətlərindən biridir. Bu Konstitusiya müstəqil dövlət quruculuğu prosesini tənzimləyən, demokratik inkişafa təminat yaradan, cəmiyyətin siyasi, sosial, mədəni, iqtisadi sferalarında köklü dəyişiklikləri özündə ehtiva edən, qanunvericiliyin təkmilləşdirilməsində hüquqi baza rolunu oynayan mükəmməl və mütərəqqi sənəd idi.

Qürurverici haldır ki, qalib xalqımız Əsas Qanunun qəbulunun 29-cu ildönümünü üçqat sevinc hissi ilə qeyd edir. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində şanlı Zəfərin qazanılması, lokal xarakterli antiterror tədbirləri nəticəsində qazanılan Qələbə sayəsində Azərbaycanın ərazi bütövlüyünün tam bərpa olunması Konstitusiyamızın ölkəmizin bütün ərazisində tətbiqinə imkan yaradıb.

## Yeni Azərbaycan Partiyasının yaradılmasının 32 illiyi

Yeni Azərbaycan Partiyasının (YAP) yaradılmasının 32-ci ildönümü ilə əlaqədar YAP Qəbələ Rayon Təşkilatında tədbir keçirilib. Tədbir iştirakçıları öncə ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət etmiş, xatirəsini ehtiramla yad edərək önünə gül dəstələri düzmüşlər. Partiyanın rayon təşkilatının inzibati binasında davam edən tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilmiş, Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canından keçərək şəhadətə ucalmış şəhidlərimizin xatirəsi 1 dəqiqəlik sükutla yad edilmiş və partiyanin keçdiyi şərəfli yolu əks etdirən video-çarx nümayiş etdirilmişdir. Sonda bir qrup partiya fəalına YAP Qəbələ Rayon Təşkilatının Fəxri Fərmanı və partiya sıralarına yeni qəbul olunmuş bir qrup şəxsə üzvlük vəsiqəsi təqdim edilmişdir.